# Seminar-müşavirə

*Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatında ilk partiya təşkilat sədrlərinin seminar-müşavirəsi keçirilmişdir.*

*Seminar-müşavirəni Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Abil Ağasəfov açmışdır.*





Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında qurulmuş YAP-ın bu gün Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu qeyd edən sədr rayon təşkilatının son illərdəki fəaliyyəti barədə seminar iştirakçılarına ətraflı məlumat vermişdir.

Abil Ağasəfov bildirmişdir ki, YAP zamanın tələbi, xalqın istəyi ilə tarixi zərurətdən yaranan partiyadır. Yeni Azərbaycan Partiyası ölkənin son 25 illik ictimai-siyasi həyatında fəal iştirak edib və Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi istiqamətində aparıcı və tarixi rol oynayıb. YAP-ın bütün fəaliyyətində Qəbələ Rayon Təşkilatı həmişə öncül mövqelərdə qərar tutub. Sədr partiyanın rayon təşkilatının 2017-ci ildə keçiriləcək IX konfransına hazırlıq məqsədilə 6205 nəfər siyasi həmfikiri birləşdirən 76 ilk təşkilatda yanvarın 9-dan etibarən hesabat-seçki yığıncaqlarının keçirilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırmışdır.

Hesabat-seçki yığıncaqlarında partiyanın IX konfransına nümayəndələrin seçilməsi və təşkilati məsələlərə baxılması tövsiyə olunmuşdur.

Sonda hesabat-seçki yığıncaqlarının qrafiki elan edilmişdir.

**«Qəbələ».**

**İlkin Vəlizadə.**

## Strateji yol xəritələri islahatların əsas amilidir

# Yeni inkişaf mərhələsinin əsası qoyuldu

***Dünyanın əksər ölkələrində son illərdə baş verən iqtisadi geriləmə 2016-cı ildə də davam etmişdir. Azərbaycan da dünya birliyinə, beynəlxalq iqtisadi sistemə geniş inteqrasiya olunduğundan qlobal miqyasda baş verən proseslərdən kənarda qala bilməzdi. Dünya bazarında xam neftin kəskin şəkildə—3 dəfədən çox usuzlaşması təbii olaraq Azərbaycana da təsirsiz ötüşməyib və xarici valyuta daxil olmalarını azaldıb.***

Yaranmış vəziyyət ölkəmizdə iqtisadi və maliyyə sahəsində gələcək neqativ halların qarşısının alınması üçün təcili tədbirlər görülməsini tələb edirdi. Vəziyyəti nəzarətdə saxlayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ümumdünya iqtisadi böhranının Azərbaycana mənfi təsirlərinin müşahidə olunduğu və enerji resurslarının qiymətinin kəskin şəkildə aşağı düşdüyü hazırkı dövrdə həyata keçiriləcək yeni iqtisadi siyasətin əsas istiqamətlərini elan etdi. Ölkə başçısının tapşırığı ilə qeyri-neft sektorunda genişmiqyaslı və sürətli islahatlara başlandı. İslahatlarda əsasən sənaye istehsalının gücləndirilməsi, xarici investisiyaların cəlb edilməsi, iqtisadiyyatın ixrac qabiliyyətinin artırılması, idxaldan asılılığın azaldılması, sahibkarlığın inkişafına xüsusi diqqət yetirilməsi və sair məsələlərin təxirəsalınmadan həlli edilməsi nəzərdə tutulur.

Artıq nəticələrinin hiss olunmağa başlandığı islahatlar proqramında idarəetmənin təkmilləşdirilməsi, struktur dəyişiklikləri, neqativ hallara qarşı mübarizə məsələləri də əsas yer tutur.

Bütün sahələrdə həyata keçirilən islahatlar hüquqi bazaya söykəndikdə effektli olur. Bu mənada ölkə başçısının təşəbbüsü ilə 2016-cı il sentyabr ayının 26-da ümumxalq səsverməsinə çıxarılaraq qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında» Referendum Aktı göstərdi ki, iqtisadi və sosial sahədə başlanan islahatlar Əsas Qanundan başlayaraq bütün hüquqi-siyasi sferanı əhatə edir.

Ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün bu sahədə mövcud vəziyyətin dərindən təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 16 mart 2016-cı il tarixli sərəncamı ilə «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri» təsdiq edilib. 400 nəfərə qədər yerli və xarici mütəxəssisin, ekspertlərin daxil olduğu işçi qrupu tərəfindən hazırlanmış strateji yol xəritələri on bir əsas sektoru əhatə edir. Əhalinin xeyli qisminin təklifləri də nəzərə alınmaqla hazırlanmış strateji yol xəritiələri layihəsi cənab İlham Əliyevin «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunub.

Strateji yol xəritələrinin hazırlanması ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyması ilə bağlıdır və bununla Azərbaycan iqtadiyyatında keyfiyyətcə yeni mərhələnin əsası qoyulmuşdur. Görülmüş işləri bütünlüklə təhlil etdikdə 2016-cı ili müasir Azərbaycan tarixində yeni uğurlu islahatların başlangıcı ili kimi qiymətləndirmək olar. Bu islahatlar nəticəsində Azərbaycanın dünya iqtisadiyyatında mövqeyi daha da möhkəmlənəcək və vətənimiz yüksək gəlirli ölkələr qrupunda layiq olduğu yeri tutacaqdır.

**«Qəbələ».**

# 20 Yanvar faciəsinin 27-ci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilib

***Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi yeddinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.***

AZƏRTAC xəbər verir ki, sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş ədəbi-bədii kompozisiyaların təklif olunması, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərslər keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər Xiyabanı ərazisində lazımi işlər aparılacaq, Azərbaycanda fəaliyyət göstərən əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə həsr olunmuş dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, Sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər Xiyabanına ziyarətinin təşkili, saat 12[00]-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulub.

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin "20 Yanvar faciəsinin iyirmi yeddinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı"na uyğun olaraq Qəbələ Rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə 20 Yanvar faciəsi ilə əlaqədar rayonda keçiriləcək tədbirlərin planı təsdiq olunmuşdur. Tədbirlər planı icra olunmaq üçün əlaqədar idarə və təşkilatlara göndərilmişdir.

Tədbirlər planına uyğun olaraq rayonun bütün yaşayış məntəqələrində, idarə, müəssisə və təşkilatlarında 20 Yanvar faciəsinə həsr olunmuş tədbirlər keçiriləcək. Ümumtəhsil və peşə təhsili məktəblərində faciəyə həsr olunmuş xüsusi dərslər tədris olunacaq. 20 Yanvar günü rayon ictimaiyyəti nümayəndələrinin Qəbələ şəhərindəki Şəhidlər Xiyabanına ziyarəti təşkil ediləcək.

## *Azərbaycan tarixinin keçmişi və bu günü haqqında*

# Tariximizin şanlı səhifəsi

***Şərqin qapısı Azərbaycanın tarixi çox qədim və zəngindir. Şanlı tariximizə nəzər saldıqda onun ululuğunu, zənginliyini, qədimdən-qədim olmasını bir daha görmək olar. Doqquz iqlim qurşağına, yeraltı-yerüstü sərvətlərə, qədim tarixi abidələrə malik Azərbaycan torpağı bərəkətli bir məmləkətdir. Yetmiş il bir imperiyanın tərkibində olan Azərbaycan artıq iyirmi beş ildir ki, müstəqil, azad respublika kimi müqəddəratını özü həll edir və bir cox xarici ölkələrlə iqtisadi, siyasi ələqələr yaradır.***

Ölkəmiz həm də faydalı qazıntılarla o qədər zəngin bir diyardır ki, saymaqla qurtarmaz. Bunlarla bərabər onun tarixi abidələri Azərbaycanın tarixən qədim bir məmləkət olduğunu sübut edir. Təkcə 2500 illik bir dövrü əhatə edən qədim Qəbələni—Qafqaz Albaniyasını xatırlatmaq kifayət edər. Şərqin qədim və orta əsr şəhərlərindən biri olmuş Qəbələ haqqında yazılı mənbələrdə eramızın birinci əsrlərindən başlayaraq məlumat verilmişdir. Eramızdan əvvəlki dövrlərin yadigarı olan tarixi eksponatlar bunu bir daha təsdiqləyir ki, Qafqaz Albaniyasının qədim şəhəri olan bu paytaxt şəhərinin yaşı, tarixi qədimdən-qədimdir. Roma alimi Böyük Pliniy (I əsr), Yunan alimi Klavdi Ptolomey (II əsr), ərəb müəllifi Balazuri (IV əsr) Qəbələ haqqında məlumat vermiş və Qəbələni tarixi, möhtəşəm, əzəmətli şəhər adlandırmışlar. Azərbaycanın Araz çayından şimalda yerləşən torpaqları, yəni indiki Azərbaycan Respublikasının ərazisi Albaniya adlanırdı.

**(Ardı gələn nömrəmizdə).**